# MƏMMƏDOV SEYMUR QƏHRƏMAN OĞLU



Məmmədov Seymur Qəhrəman oğlu 18 sentyabr 1971-ci ildə Füzuli şəhərində dünyaya göz açmışdır. 1978-ci ildə buradakı 2 saylı orta məktəbə getmiş, 1988-ci ildə məktəbi bitirmişdir. Elə həmin il Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet - red.) elektrotexnika fakültəsinə daxil olmuşdur. O, təhsil almaqla yanaşı Füzuli şəhər rabitə şöbəsində işləyirdi. 1991-ci ildə hərbi xidmətə çağırılmış, Vladimir vilayətinin Kovrov şəhərində artilleriya üzrə 6 aylıq kurs keçdikdən sonra Almaniyaya göndərilmişdir. Bir müddətdən sonra isə Ukrayna Respublikasının Çerniqov şəhərində xidmətini davam etdirir. Hərbi xidmətdən qayıtdığı gündən, könüllü olaraq 814 saylı özünümüdafiə batalyonuna yazılır. Bu ərəfədə bir neçə kəndimiz ermənilər tərəfindən işğal edilmişdi. O, çox gənc olmasına baxmayaraq həmişə qaynar nöqtələrdə olur, ən çətin əməliyyatlarda iştirak edirdi. Seymur onlarla azərbaycanlı əsirin azad edilməsində, 11 nəfər əsgərin mühasirədən çıxarılmasında və bir neçə kəndin erməni işğalçılarından təmizlənməsində əsl igidlik göstərmişdir. 1 aprel 1992-ci ildə Məlikcan kəndi uğrunda gedən döyüşdə hər birində 10 nəfərə yaxın erməni yaraqlısı olan 15 post darmadağın edildi. Bu qeyri-bərabər döyüşdə S. Məmmədov düşmən snayperinin gülləsinə tuş gəlmiş, qəhrəmancasına həlak olmuşdur. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Oxuduğu Füzuli rayon 2 saylı məktəb onun adını daşıyır. 2019-cu ildə Çingiz Həsənovun rejissorluğu ilə ”Salnaməfilm” studiyasında Milli Qəhrəman haqqında "Qartal yuvası" sənədli filmi çəkilmişdir.